# Taekvondoçulardan daha 3 medal: qızıl, gümüş, bürünc





Azərbaycan idmançıları V İslam Həmrəyliyi Oyunlarında növbəti medallarını qazanıblar. Taekvondoçumuz Patimat Abakarova (49 kq) rəqibi - Nigeriya təmsilçisi Farida Saumanı məğlub etməklə yarımfinala vəsiqə qazanıb. Bununla da o, minimum bürünc medalı özü üçün təmin edib. Dünən axşam yarımfinal və final döyüşləri keçirilib. Patimat Abakarova yarımfinalda  məğlub olub və bürünc medala yiyələnib.

Digər taekvondoçumuz Fəridə Əzizova da uğurla çıxış edərək yarımfinala yüksəlib. Komandamızın üzvü (67 kq) yarımfinala vəsiqə uğrunda qarşılaşmada qazaxıstanlı Feruza Yergeşovaya qalib gəlib. Bununla da o, özünə minimum bürünc medal təmin edib.

Son məlumata görə, Azərbaycanın qadın taekvondoçusu Fəridə Əzizova Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında finala yüksəlib. İdmançımız yarımfinalda mərakeşli Safi Salihə qalib gəlib. Bu isə o deməkdir ki, Əzizova ən azı gümüş medalı özü üçün təmin edib.

Final qarşılaşmasında seneqallı rəqibini məğlub edən Fəridə İslamiadanın qalibi olub. Daha bir taekvondoçumuz Cavad Ağayev (68 kq) isə qazaxıstanlı rəqibi Eldar Birimbaya qalib gələrək yarımfinala yüksəlib. Bununla da ən azı bürünc medalı təmin edib. Konyadan aldığımız xəbərə görə, Cavad Ağayev də yarımfinalda Seneqal təmsilçisini məğlub edərək finala adlayıb. Həlledici döyüşdə Özbəkistan təmsilçisinə  uduzan Cavad İslamiadanı gümüş medalla başa vurub.



Azərbaycan.- 2022.-11 avqust.- S.7.